# Azərbaycanın daha gözəl və daha uğurlu gələcəyi naminə prezidentliyə ən layiqli namizəd İlham Əliyevdir

***Yeni Azərbaycan Partiyasının qəbələli fəallarla görüşü zamanı qarşıdakı prezident seçkilərində ölkənin daha firavan və daha uğurlu gələcəyi naminə İlham Əliyevin ən layiqli namizəd olduğu vurğulandı***

Yeni Azərbaycan Partiyası sədrinin müavini—icra katibi, Milli Məclisin deputatı Əli Əhmədov iyulun 17-də Qəbələ mədəniyyət mərkəzində partiyanın rayon təşkilatının fəalları ilə görüş keçirmişdir. Görüşdə Milli Məclisin deputatı, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Milli Məclisin deputatı, icra katibinin müavini Mübariz Qurbanlı, Milli Məclisin üzvü, aqrar siyasət komitəsinin üzvü Ərəstun Cavadov, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişlər.







Görüş başlamazdan əvvəl qonaqlar və fəallar ümummilli lider, partiyanın yaradıcısı Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər qızıl gül dəstələri düzmüş və böyük şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etmişlər.

Tədbiri YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmış və çıxış üçün sözü Əli Əhmədova vermişdir.

Əli Əhmədov partiya fəallarını salamladıqdan sonra demişdir: Qəbələyə hər gelişimiz zamanı burada davam etməkdə olan sosial-iqtisadi inkişaf sahəsində uğurları gördükdə qəlbimizdə böyük fərəh və qürür hissi duyuruq. Doğma Vətənimiz Azərbaycan son 10 ildə ən müasir bir ölkəyə çevrilib. O cümlədən Qəbələ də dünyanın ən sürətlə inkişaf etmiş şəhərlərindən biri sayılır. Bu il Qəbələ MDB ölkələrinin mədəniyyət paytaxtına çevrilib. Bu şəhərdə ardıcıl olaraq beynəlxalq tədbirlər—elmi konfranslar, musiqi festivalları incəsənət sərgiləri keçirilir. Lakin geriyə dönüb bir qədər əvvəlləri xatırlasaq, Qəbələnin keçmişini yada salsaq nələri görmək olardı? Qəbələ ucqar, aqrar bir bölgə idi. O vaxtlar nəinki Qəbələ, heç Azərbaycanın özü belə bir çox xarici ölkələrdə tanınmırdı. Sürətli inkişaf dinamikası, İlham Əliyev iradəsi, qətiyyəti, fədakarlığı Azərbaycanı dünyanın ən sürətli inkişaf edən ölkəsinə çevirib. Bu nəticələr indi hər bir Azərbaycan vətəndaşının gözü qarşısındadır. Məhz ona görə də Yeni Azərbaycan Partiyası V qurultayının iştirakçıları Heydər Əliyev siyasətinin davamçısı, partiyanın sədri, ölkə Prezidenti İlham Əliyevin cari ilin oktyabr ayında keçiriləcək Prezident seçkilərində yenidən namizədliyini irəli sürmək üçün qərar qəbul etmişdir. Bu nəticə onunla bağlıdır ki, ötən 10 il ərzində dünyanın heç bir ölkəsində iqtisadiyyat 3 dəfə artmamışdır. Sonrakı 5 ildə iqtisadiyyatın daha 2 dəfə artımı gözlənilir. Ona görə də Heydər Əliyevdən sonrakı inkişaf xətti bu qərarın düzgün olduğunu deyir.

Azərbaycanın siması həqiqətən dəyişib, yeniləşib, müasirləşib. Nəinki Azərbaycanın siması, dəyişib, yeniləşib, inkişaf edib, müasirləşib. İndi insanlar da daha yaxşı, daha müasir, həyat uğrunda mübarizə aparırlar.

Əli Əhmədov çıxışına davam edərək qeyd etdi ki, diqqətlə nəzər yetirsək, görərik ki, həqiqətən inkişafın standartları da dəyişib. Əldə edilən uğurlarda hər bir azərbaycanlının payı vardır. Bir vaxtlar ölkə əhalisi ən zəruri tələbatlarını ödəmək uğrunda mübarizə aparırdılar. Çörək qazanmaqdan başqa digər maddi tələbatlar yada düşmürdü. Lakin Heydər Əliyev siyasətinin uğurla həyata keçməsi qısa bir zaman kəsiyində insanların həyatını dəyişdi. Cənab İlham Əliyev hələ ilk dəfə ölkə Prezidenti seçilərkən verdiyi bütün vədlərinə əməl etmişdir. Yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşdırılması, regionların inkişafı ilə bağlı verdiyi bütün vədlər yerinə yetirilmişdir. Bunlar vəd deyildi, bunlar proqram xarakteri daşıyırdı. Bu proqramlar tam icra olunmuşdur. Bunların hamısı cənab Prezidentin inamı, qətiyyəti, fədakarlığı və xalqın dəstəyinin nəticəsidir.

Əli Əhmədov çıxışında müxalifət partiyalarının hazırki fəaliyyətinə, seçkiqabağı əsassız uydurmalarına, ölkənin inkişafı ilə bağlı məsələlərə qara yaxanlara, kölgə salanlara da tutarlı faktlarla cavab verdi. Həmçinin çıxışına davam edərək Qarabağ konflikti ilə bağlı aparılan siyasi kursa da xüsusi yer verdi. Sonda əmin olduğunu bildirdi ki, Qəbələ ziyalıları, ağsaqqalları, bütün fəallar qarşıdakı seçkilərə hazırlıq mərhələsində, habelə gələcək təbliğat-təşviqat kampaniyalarında fəal iştirak edəcək və İlham Əliyevin yenidən Prezident seçilməsi üçün xüsusi səy göstərəcəklər.

Görüş iştirakçılarından YAP Qəbələ Rayon təşkilatı qadınlar şurasının sədri Arifə Bayramova, gənclər birliyinin üzvü Elmir Maqsudov çıxış edərək respublikamızın, o cümlədən rayonumuzun sosial-iqtisadi inkişafında, əldə olunan uğurlarda qadınların və gənclərin xüsusi yeri olduğunu qeyd etdilər, ölkə başçısı İlham Əliyevin ötən 10 il ərzində qadın hüquqlarının qorunmasından, onlara göstərilən qayğıdan, ölkədə güclü gənclər siyasətinin həyata keçirilməsindən danışdılar. Çıxış edən qəbələlilər qonaqları əmin etdilər ki, Qəbələ qadınları, Qəbələ gəncləri indiyədək onlara göstərilən etimadı bundan sonra da yüksək səviyyədə doğruldacaq, istər ölkədə, istərsə də beynəlxalq aləmdə böyük siyasətin davamçısı olan ölkə Prezidenti İlham Əliyevi yüksək səviyyədə dəstəkləyəcəklər.

Tədbirdə el ağsaqqalı, respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin üzvü Fəttah Heydərov çıxış edərək bir daha qəbələlilərə bu görüşdən məmnun qaldığını söylədi. Cənab İlham Əliyevin yenidən Azərbacan Respublikasının Prezidenti seçilməsi üçün yüksək reaksiya ilə görüşə gələn Qəbələ fəallarını alqışladı. O qeyd etdi ki, hazırda qəbələlilər çox yüksək ruhla yaşayır. Bunu bu günkü tədbirdə olan çıxışlar da göstərir. Səbəbi isə Qəbələdəki böyük sosial-iqtisadi inkişafdır. Bu inkişafı təmin edən isə Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyevdir. Doğrudur, aramızda cəmiyyətin, dövlətin siyasətini düzgün anlamayanlar da vardır. Anlaşılmazlıq isə həmişə həyatda öz yerini tapmayıb, yox olub gedib.

Millət vəkili nəzər-diqqətə çatdırdı ki, qarşıda bizi böyük siyasi kampaniya gözləyir və əmin olduğunu bildirdi ki, həmişə olduğu kimi qəbələlilər bu kampaniyada da fəal iştirak edəcək, qarşıda duran vəzifənin öhdəsindən ləyaqətlə gələcək və sonrakı 5 ili də cənab Prezident İlham Əliyevlə birlikdə başa vuracaqlar.

Sonda partiya üzvlüyünə yeni qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunmuşdur.

Bununla da fəallarla görüş başa çatmışdır.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar S. Umuyevindir.**